# Anar EYVAZOV: "Azərbaycan Ordusunda heç bir qadağan olunmuş silah yoxdur"

Sentyabrın 27-dən bu günədək Azərbaycan Ordusu tərəfindən həyata keçirilən əks-həmlə əməliyyatı dövründə bütün birləşmələrimiz və bölmələrimiz verilən göstərişlərə uyğun olaraq beynəlxalq humanitar hüququn normalarına, o cümlədən Cenevrə Konvensiyasına və əlavə edilmiş bütün protokollara, norma və prinsiplərə tam riayət edir. Bu müddətdə düşmən canlı qüvvə, döyüş texnikası baxımından ağır itkilər verərək hər dəfə geriyə çəkilməyə məcbur edilir. Bir neçə şəhərimiz, kəndimiz və qəsəbəmiz artıq işğaldan azad edilib. Hazıra Ağdərə, Xocavənd və Qubadlı istiqamətlərində döyüşlər davam edir. Düşmənə qarşı ciddi tədbirlər görülür.

AZƏRTAC xəbər verir ki, bu barədə Müdafiə Nazirliyinin Mətbuat xidmətinin mətbuat katibi polkovnik-leytenant Anar Eyvazov oktyabrın 31-də Hərbi İnformasiya Mərkəzində keçirilən brifinqdə deyib.

Anar Eyvazov bildirib ki, bu müddətdə üç dəfə humanitar atəşkəs rejimi elan edilib. Bölmələrimiz tərəfindən göstərişə uyğun olaraq bu rejimə tam riayət edilir. Təəssüf ki, düşmən elan olunan humanitar atəşkəslərdən sui-istifadə edərək hər dəfə bölmələrimizə qarşı hücum etməyə cəhd edib və onlar itirdikləri mövqeləri yenidən əldə etmək üçün ordumuza qarşı əks-hücum əməliyyatları icra etməyə çalışıblar. Hər dəfə də ağır itki verərək geri çəkilməyə məcbur olublar. Döyüş meydanında dəfələrlə uğursuzluqla üzləşən düşmən bölmələri çarəni başqa istiqamətlərdə axtarırlar və vəziyyəti dəyişdirmək üçün başqa çıxış yolları arayırlar. Bizim döyüş sahəsindən kənarda yerləşən yaşayış məntəqələrimizi raket və artilleriya silahları ilə atəşə tuturlar. Bu da bizim mülki əhalimizə və infrastrukturumuza ziyan vurur.

Biz bunların qarşısını almaq üçün döyüş əməliyyatlarını davam etdiririk. Düşmənin ağır silahları havadan və yerdən aşkar olunaraq məhv edilir. Bu əməliyyatların yekunlaşması üçün işğal altındakı bütün ərazilərimiz azad edilməli və ərazilərimizdə silahlı düşmən qalmamalıdır. Bütün əməliyyatlarımız yalnız əməliyyat sahəsində həyata keçirilir. Ermənistanda bizim heç bir hədəfimiz yoxdur. Bizim bütün hədəflərimiz yalnız düşmənin silahlı bölmələridir və onun legitim hərbi obyektləridir ki, biz bunlara qarşı havadan və qurudan əməliyyatlarımızı davam etdiririk.

Müdafiə Nazirliyinin mətbuat katibi qeyd edib ki, düşmənin yaşayış




məntəqələrimizə mərmilər atmasının səbəblərindən biri bizi təhrik etməkdir. Onlar bizim mövqelərimizi Ermənistandan atəşə tuturlar. Bu mövqelərə cavab atəşləri açmağımızı gözləyirlər, daha bir az cəbhəni genişləndirmək istəyirlər. Lakin Azərbaycan Ordusu tapşırığa uyğun olaraq, yalnız işğal altındakı torpaqlarımızda əməliyyatları davam etdirir.

Düşmənin digər məqsədi mülki insanlarımız arasında təşviş yaratmaqdır. Ancaq onlar buna nail ola bilmirlər. Xalqımız müzəffər Ali Baş Komandanımızın ətrafında möhkəm birləşib. Ordumuz düşmənə daha sarsıdıcı zərbələr endirərək onu itkilərə uğradır. Düşmən bunu görür və sarsılır. Bu xalq-ordu-dövlət birliyini yalnız düşmən deyil, ordumuz da görür. Bizim Azərbaycan əsgəri bundan güc alır, döyüş ruhu daha da artır. Hazırda döyüş sahəsində Azərbaycan əsgərinin mənəvi-psixoloji vəziyyəti, ordumuzun maddi-texniki təminatı çox yüksək səviyyədədir. Biz bu minvalla əməliyyatlarımızı davam etdirəcəyik.

"Düşmən təxribat törədərək mülki əhalimizə qarşı qanunsuz silah və sursatlardan istifadə edir. Bizi də təhrik edərək dezinformasiya və yalan məlumat yaymağa çalışır. Bəyanatlarımızda bildirdiyimiz kimi, Azərbaycan Ordusunda heç bir qadağan olunmuş silah yoxdur və istifadə olunmur. Arsenalımızda olan silah-sursatlarla düşmənin istənilən nöqtəsini məhv etməyimizə gücümüz çatır.

Əldə olunan məlumata görə, düşmən Xocavənd istiqamətinə fosfor tərkibli maddələr gətirib. Düşmən gizlənmək məqsədilə bu maddələrdən meşələrdə tətbiq etmək istəyir. Meşələrdə yanğınlar törədərək bunu Azərbaycan Ordusunun üzərinə atmaq istəyir. Dezinformasiya yayaraq öz bölmələrinin orada gizlənməsini təmin etmək istəyir. Lakin biz bəyanatlarımızla, apardığımız şəffaf əməliyyatlarla və yaydığımız videogörüntülərlə hər gün ictimaiyyətimizi və beynəlxalq ictimaiyyəti bu barədə məlumatlandırırıq", - deyə Anar Eyvazov vurğulayıb.

Azərbaycan.- 2020.- 1 noyabr.- S.5.